BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2010*

# İLK ORTA ƏSRLƏRDƏ NAXÇIVANDA MALDARLIQ TƏSƏRRÜFATI

**V.A.QASIMLI**

***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***

***V.gasimli.@box.az***

*Bu məqalədə ilk orta əsrlərdə Naxçıvan bölgəsində mövcud olmuş təsərrüfatın ən mühüm sahələrindən biri olan maldarlıqdan bəhs olunur. Aparılmış genişmiqyaslı tədqiqatlar sübut edir ki, Naxçıvan ərazisinin əlverişli təbii-coğrafi şəraitə malik olması- su hövzələrinə yaxınlığı, geniş otlaq sahələrinin mövcudluğu, iqlimin və relyefin rəngarəngliyi, ərazinin qışlaq və yaylaq maldarlığı üçün əhəmiyyətli olması və s. amillər tarixən burada maldarlığın inkişafına şərait yaradaraq əhalinin təsərrüfat həyatının başlıca sahələrindən birinə çevrilmişdir.*

Naxçıvan ərazisinin əlverişli təbii-coğrafi şəraitə malik olması su hövzələrinə yaxınlığı, geniş otlaq sahələrinin varlığı, iqlimin və relyefin rəngarəngliyi, ərazinin qışlaq və yaylaq maldarlığı üçün əhəmiyyətli olması və s. amillər tarixən burada da maldarlığın inkişafına şərait yaradaraq, əhalinin təsərrüfat həyatının başlıca sahələrindən birinə çevirmişdir. Naxçıvan ərazisində iri və xırdabuynuzlu maldarlıqla yanaşı qatırçılıq, atçılıq, dəvəçilik kimi maldarlığın digər sahələri də inkişaf etdirilərək tələbata uyğun şəkildə istifadə edilmişdir. Arxeoloji tədqiqatlar zamanı dəfələrlə at, dəvə, qoyun, öküz və s. tipli ev heyvanlarına məxsus skelet qalıqlarına, daşdan yonulub hazırlanmış at və qoç heykəllərinə, maldarlıq məhsullarının hazırlanması üçün istifadə olunmuş müxtəlif növ gil qab nümunələrinə, sərniclərə, nehrələrə və s. rast gəlinməsi, tarixən bu bölgədə maldarlığın bütün növ sahələri ilə məşğul olunmasından xəbər verir. Heç təsadüfü deyildir ki, bölgədə maldarlığın inkişafına rəvac verən amillər, insanlığın bu təsərrüfat sahəsinə olan böyük ehtiyacından irəli gəlirdi. Belə ki, ətə, yuna, gön-dəriyə, südə, yağa və s. heyvandarlıq məhsullarına cəmiyyət daxilində böyük miqyasda tələbat meydana gəlmişdir. Tələbatın durmadan artması amili isə ərazinin sürətli ikişafından xəbər verirdi.

Aparılan araşdırmalar sübut edir ki, Naxçıvan ərazisində əhalini qida məhsulları və gön-dəri məmulatları ilə təmin edən iri və xırdabuynuzlu maldarlıq daha çox inkişaf etdirilmişdir. Digər tərəfdən kənd təsərrüfatının ağır əkin-biçin işlərində işlədilən heyvanlar içərisində kəl və öküzlərin xüsusi yerinin olması iribuynuzlu maldarlığın inkişafına xüsusi önəmin verilməsindən xəbər verir [4, 42].

Apardığımız müşahidə və araşdırmaların nəticəsi olaraq maldarlığın bir sıra tipərinə Naxçıvan bölgəsində də rast gəlinmişdir. Ərazinin dağlıq və düzən relyeflərə malik olması tarixən burada həm düzən, həm də dağlıq və dağətəyi tipli oturaq maldarlığın, eləcə də yarımköçmə maldarlığın meydana gəlməsinə vəsilə olmuşdur.

Naxçıvan bölgəsində aparılan arxeoloji-etnoqrafik müşahidə və tədqiqatlara dayanaraq deyə bilərik ki, Azərbaycanın digər erkən orta əsr yaşayış yerlərində olduğu kimi bu bölgədə də erkən orta əsrlərə aid oturaq maldarlığın düzən, dağlıq və dağətəyi növləri mövcud olmuşdur [5, 67]. Əsasən əkinçilik (taxılçılıq, çəltikçilik), bağçılıq, bostançılıq və bir sıra texniki bitkilərin becərilməsi ilə məşğul olan əhali mal-qaranı ilin bütün fəsillərində kəndin özündə və ya ondan bir qədər aralıda

yerləşən örtülü və açıq sığınacaqlarda saxlamışdılar. Qeyd edək ki, bölgədə oturaq maldarlığın mövcudluğu ərazinin coğrafi relyefindən, fauna və flora zənginliyindən, iqlimin münbitliyindən, şirin su hövzələrinin bolluğundan, habelə əhalinin maddi və mənəvi dəyərlərindən bilavasitə asılı olmuşdur.

Bölgənin erkən orta əsrlər dövrünə aid oturaq maldarlığın düzən tipini səciyyələndirən mədəni-təsərrüfat kompleksləri başlıca olaraq Araz boyu və Şərur düzü boyu ərazilərdə yayılmışdır. Buradakı maldarlar öz heyvanlarını bilavasitə kəndətrafı örüşlərdə, habelə biçindən sonrakı kövşənliklərdə otarır, suya olan tələbatlarını isə Araz və Arpaçayın bol və şirin su mənbələri ilə qarşılaşmış olurdular. Oturaq maldarlığın bu növü ərazinin erkən orta əsrlər dövrünə aid Albantəpə, Axura Kültəpəsi, Qoşatəpə, Yurdçu, Yayıcı, Parçı, Püsyan kimi kəndtipli yaşayış yerləri üçün xarakterik olmuşdur [1, 55].

Danışılan dövr üçün oturaq maldarlığın dağlıq tipinə gəlincə isə bu tipin Zəngəzur və Dərələyəz silsiləsi boyu yayılmış kəndtipli yaşayış yerləri üçün xarakterik olduğunu söyləyə bilərik. Alp və subalp çəmənlikləri ilə zəngin olan bu ərazilər Naxçıvan bölgəsinin dağlıq zonalarda yaşayan əhalisinin maldar təsərrüfatının bir növ yem bazası rolunu oynamışdır. Şahbuz, Şərur və Culfa rayonlarının dağlıq zonalarında yerləşən Külüs, Kolasu, Kolluq, Qızıltapılan, II Boyəhməd, Fərhadevi ətrafı kimi kəndtipli yaşayış yerlərinin əhalisi oturaq maldarlığın məhz dağlıq tipi ilə məşğul olaraq, onu öz həyat fəalliyyətinin bir sahəsinə çevirmişdi.

Oturaq maldarlığın dağlıq tipindən bir o qədər də fərqlənməyən dağətəyi maldarlıq tipi kompleksinin fəaliyyəti zamanı isə maldarlar yay vaxtı əkin-biçin işləri ilə məşğul olmaqla yanaşı həm də mal-qaranı kənddən aralı dağlıq ərazilərə çıxararaq iki-üç ay burada qaldıqdan sonra yenidən güzdəyə endirirdilər. Məhsul toplanması və heyvanların qış tədarükü başa çatdıqdan sonra isə mal-qaranın tövlə şəraiti başlanmış olurdu. Albantəpə, Axura Kültəpəsi, Qoşatəpə, Yurdçu, Yayıcı, Püsyan, Zoğala, Yeycə kimi kəndtipli erkən orta əsr yaşayış yerləri oturaq maldarlığın dağətəyi tipi üçün xarakterik olmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi aparılan arxeoloji və etnoqrafik müşahidələrə əsasən erkən orta əsrlər Naxçıvan ərazisində oturaq maldarlıqla yanaşı yarımköçmə maldarlığın da mövcud olduğu aydınlaşmışdır. Maldarlığın bu formasının fəaliyyəti zamanı mal-qara, hətta qışlaq mövsümündə belə, örtülü tövlə və yataqlarda deyil, açıq və ya yarımaçıq kərəskə və ağıllarda saxlanılırdı. Yarımköçəri maldarların yaşayış evləri adətən «qış» və «yay» evlərinə ayrılmaqla müvəqqəti xarakter daşıyan alaçıqlardan ibarət olurdu.

Aparılan arxeoloji tədqiqatlarla yanaşı etnoqrafik müşahidələr nəticəsində aydın olmuşdur ki, Azərbaycanın digər erkən orta əsr yarımköçəri maldar tayfaları kimi Naxçıvan ərazisində mövcud olmuş yarımköçəri maldar tayfaların özünəməxsus xüsusiyyətləri olmuşdur. Belə ki, bu maldar tayfaların ümumilikdə yarımköçəri maldar tayfalara məxsus mədəniyyətlərdən tam fərqi ondan ibarət idi ki, bu tayfaların daimi yaşayış məskənləri, daimi yaylaq və qışlaq otlaq sahələri, daimi köç yolları, az miqdarda olsa belə, yenə də müəyyən miqdarda əkin sahələri mövcud olmuşdur.

Naxçıvan ərazisində iri və xırdabuynuzlu, habelə qatırçılıq və atçılığın inkişafı əsasən bölgə ərazisinin dağlıq və düzən tipli relyef quruluşa malik olmasından birmənalı şəkildə asılı idi. Belə ki, əgər çətin keçilə bilən dağ relyefinndə əsasən xırdabuynuzlu (qoyun, keçi) heyvandarlıq inkişaf etdirilmişdirsə, bu hal düzən relyefdə öz yerini daha çox iribuynuzlu

heyvandarlığa vermişdir. Şahbuz (Biçənək, Ağbulaq, Keçili, Külüs), Şərur (Cağazir, Aşağı və Yuxarı Yayıcı, Havuş), Culfa (Ləkətağ, Bayəhməd, Zoğala) və Ordubad kimi dağ relyeflərinə malik rayonların bəzi kənd tipli yaşayış məntəqələrində bu gün də xırdabuynuzlu heyvandarlığa önəm verilməsi faktı göstərir ki, hələ erkən orta əsr dövrlərində, adı keçən ərazilərin bir sıra kəndtipli yaşayış məntəqələrində xırdabuynuzlu heyvandarlığa daha çox üstünlük verilmişdir.

Lakin bütün bunlarla yanaşı Şərurun Axura kəndi ərazisindəki Albantəpə, Axura Kültəpəsi, Qoşatəpə, Culfanın Saltax kəndi yaxınlığındakı Yeycə kimi dağlıq və düzənlik relyef quruluşlarının hər ikisini özündə birləşdirən erkən orta əsr kəndtipli yaşayış yerlərində aparılmış və aparmış olduğumuz tədqiqatlar zamanı çoxlu sayda ev heyvanlarından olan qoyun, keçi və qaramal sümüklərinə rast gəlinməsi faktı burada maldarlığın hər iki qolunun inkişafı üçün əlverişli şəraitin olduğundan xəbər vermişdir.

Tədqiqat işləri zamanı osteoloji qalıqlara, başlıca olaraq aşkar olunmuş mədəni təbəqənin ocaq yerlərində, quyularda, təndirlərdə, təsərrüfat tipli tikililərin torpaq döşəmələrində və saxsı nümunələri içərisində rast gəlinmişdir ki, bunların da hər biri ayrı-ayrılıqda maldarlığın insan həyatında önəmli yerə sahib olmasından xəbər verir. Naxçıvan ərazisində aparılmış arxeoloji qazıntılar zamanı iri və xırdabuynuzlu maldarlığa aid osteoloji qalıqları içərisində bir qayda olaraq keçi, qoyun, öküz, camış, donuz, nadir hallarda isə dəvə, at və ulaq sümükləri aşkarlanaraq qeydə alınmışdır. Bu materialların öyrənilməsi zamanı isə Naxçıvan bölgəsinin III-VIII əsrlər maldarlıq təsərüffatında əsas yerin xırdabuynuzlu ev heyvanlarına aid olduğu aydınlaşmışdır.

**Naxçıvan ərazisində inkişaf etdirilmiş heyvandarlığın digər bir sahəsi isə atçılıq olmuşdur. Bu təsərrüfat, demək olar ki, zaman keçdikcə maldarlıqdan ayrılmış və özü xüsusi bir təsərrüfat sahəsinə çevrilmişdir. Tarixən atçılığın bir çox təsərrüfat və ordu quruculuğu sahələrində özünü köməkçi qüvvə kimi göstərməsi faktı tarixi qaynaqlardan və arxeoloji tədqiqatlardan da bəlli olur. Tranzit ticarətindən tutmuş ölkə daxili ticarətə kimi, minik və qoşqu vasitəsi kimi, müharibələrdə isə süvarinin əsas döyüş vasitəsi kimi bu heyvanın daha çox lazımlı olması atçılığın inkişafını hər zaman labüd etmişdir. Təsadüfü deyildir ki, Şahbuzun Keçili, Biçənək, Ağbulaq, Şərurun Havuş, Cağazir, Culfanın Ləkətağ, Bayəhməd və s. kimi yaşayış məntəqələrində atçılığın hələ də təsərrüfatın ayrılmaz sahələrindən biri kimi gündəmdə qalması regionun təbii qanunauyğunluqlarından irəli gələn amillə əlaqədardır. Aparılan arxeloji tədqiqat işləri zamanı çoxlu sayda at sümüklərinə Naxçıvan bölgəsinin əsasən dağlıq relyefə malik erkən orta əsr kəndtipli yaşayış yerlərində - Albantəpə, Qoşatəpə, Havuş, II Bayəhməd, Külüs, Kolasu, Qızıltapılan, müdafiə tipli istehkam abidələrindən isə Şapurqala və Gavurqalada rast gəlinmişdir.**

Heyvandarlığın digər bir sahəsi olan dəvəçilik erkən orta əsrlər, eləcə də inkişaf etmiş orta əsrlər Naxçıvanın təsərrüfat həyatında hər zaman müstəsna rola malik sahələrindən biri olaraq əhalinin istər ticari, istərsə də təsərrüfat fəaliyyətində əvəzedilməz üstünlüyü ilə fərqlənmişdir. Dəvənin yunundan tutmuş əti və dərisinə kimi təsərrüfat və məişət həyatında istifadəsi, dəvəçiliyin xeyirli bir sahə olduğunu əhalinin nəzərindən qaçırmamışdır. Yaddan çıxarmaq olmaz ki, erkən orta əsrlər dövrünün tranzit ticarətinin inkişafında dəvə karvanlarının xüsusi rolu var idi. Bölgədə aparılan arxeoloji tədqiqat işləri zamanı dəvə sümüklərinə əsasən Püsyan kəndtipli yaşayış yerinin və Sədərək şəhər yerinin erkən orta əsrlərə aid mədəni təbəqələrində rast gəlinmişdir.

Bölgədə ulaqların da müstəsna rola malik olması və ərazidə çoxlu sayda bəslənilərək sonradan ticarət abyektinə çevrilməsi haqqında məlumatlar bir sıra qaynaqlardan da bəlli olur. Qeyd etmək lazımdır ki, əsasən minik vasitəsi kimi istifadə olunan bu heyvanlar erkən orta əsrlər Naxçıvan təsərrüfatının ayrılmaz bir qolunu təşkil etmişdi. Ulaq sümüklərinə Axura Kültəpəsi, Havuş, Albantəpə, Püsyan, Külüs, Kolasu, Qızıltapılan kəndtipli yaşayış məskənlərinin erkən orta əsrlərə aid mədəni təbəqələrinin müxtəlif dərinliklərində rast gəlinmişdir.

Beləliklə sonda onu demək olar ki, Naxçıvan bölgəsində qədim dövrlərdən üzü bu yana maldarlıq əhalinin təsərrüfat fəaliyyətində böyük rol oynamış, onun yaşam tərzinə hər cəhətdən təsir göstərmişdir.

## ƏDƏBİYYAT


1. Bünyadov T.Ə. Azərbaycanda maldarlığın inkişaf tarixindən. Bakı: Elm, 1969, 188 s.
2. Əliyev V.H. Gəmiqaya abidələri. Bakı: Azərnəşr, 1993, 79 s.
3. Əliyev K.N., Əliyeva F.K. Azərbaycan antik dövrdə. Bakı: Azərnəşr, 1997, 118 s.
4. Həvilov H. Azərbaycanın maldarlıq mədəniyyəti. Bakı: 1987, 83 s.
5. Məmmədov A.M. Gəncəbasar IV-XIII əsrlərdə. Tarixi arxeoloji tədqiqat. Bakı: Elm, 1993, 204 s.
6. Müseyibli N. Gəmiqaya rəsmləri. Bakı: XXI əsr Yeni Nəşrlər Evi, 2002, s. 48
7. Novruzlu Ə.İ., Nuriyev A.B. Azərbaycan yeni tikinti sahələrində arxeoloji tədqiqatlar. Xaraba Şəhər. 2 cilddə, I c., Bakı: 2002, Elm, 71 s.
8. Piriyev V.Z. Naxçıvan tarixindən səhifələr. Müəllim nəşriyytı. Bakı: 2004, 126 s.
9. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Bakı: Azərbaycan SSR EA, 1961, 180 s.
10. Vəlixanlı N. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı: Elm, 1974, s. 108.
11. Немат М.С. Корпус эпиграфических памятников Азербайджана. В 3-х т. Т.III. Баку, XXI YNE, Yeni Nəşrlər evi, 2001, 216 с.


## СКОТОВОДСКОЕ ХОЗЯЙСТВО В НАХЧЫВАНЕ В РАННЕМ СРЕДНЕВЕКОВЬЕ


**В.А.ГАСЫМЛЫ**


**РЕЗЮМЕ**


В этой статье рассказывается о скотоводстве, являющимся одним из важнейших отраслей хозяйства, которая существовала в Нахчыване в раннем средневековье. Проведенные широкомасштабные исследования доказывают, что наличие в Нахчыванском регионе выгодных естественно-географических условий, близость водных бассейнов, наличие широких пастбищных участков, разнообразие климата и ландшафта, значительность территории для зимнего и летнего скотоводчества и др. факторы, исторически создавая здесь условия для развития скотоводства превратила ее в одну из главных отраслей хозяйственной жизни населения.

## CATTLE BREEDING IN NAKHCHIVAN IN EARLY MIDDLE AGES

**V.A.GASIMLY**

**SUMMARY**

The article deals with one of the basic fields of economy – cattle-breeding. Wide-scale investigations prove that favorable natural-geographical conditions- closeness to water basins, vast meadows, variety of climate and relief, importance of the area for winter and summer pastures etc. historically created conditions for the development of cattle-breeding in the area, and have become one of the main fields of economical life of the inhabitants.